

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 212 (23.854)

16 noyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


İcmal

## Müstəqilliyimizin, muxtariyyətimizin real bəhrələrini yaşayan, müasir inkişaf modeli ilə tarixləşən

***Azərbaycanın dövlət müstəqilliyinin, dünyada qazandığı siyasi nüfuzunun, artan iqtisadi-hərbi qüdrətinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası yeni inkişaf dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirilməsi sayəsində dövlət müstəqilliyinin, muxtariyyətinin bəhrələrini yaşayan diyarımızın hərtərəfli sosial-iqtisadi inkişafı təmin edilmiş, aparılan quruculuq işləri muxtar respublikanın simasını tamamilə dəyişmişdir.***

### *Muxtariyyətimizin və müstəqilliyimizin bəhrələri – müasirləşən kəndlərimiz, aqrar sahədə əldə olunan möhtəşəm uğurlar, qazanılan insan kapitalı*

Müstəqillik illərində kompleks şəkildə abadlaşan kəndlər Naxçıvanın müasir inkişaf göstəricisinə çevrilmişdir. Muxtar respublikanın, demək olar ki, bütün yaşayış məntəqələrində şəhər infrastrukturu yaradılır, kompleks quruculuq işləri aparılır, yeni sosial obyektlər istifadəyə verilir. Bunun da nəticəsində insanların sosial rifah halı günbəgün yaxşılaşır. İnsan amilinə xidmət edən bu tədbirlərin davamı olaraq Babək rayonunun Araz, Şərur rayonunun Dərvişlər kəndlərində geniş quruculuq işləri aparılmış, sakinlərin rahat yaşayışına xidmət edən müasir sosial obyektlər inşa olunmuşdur.

Ölkənin dövlət müstəqilliyinin qorunub saxlanılması, gələcək inkişafı məqsədilə müstəqillik illərində muxtar respublikada təhsil quruculuğu dövlət siyasətinin başlıca prioriteti olmuşdur. Muxtar respublikada 200-dən artıq məktəbin tikintisi, müasir avadanlıqlarla təminatı, ümumilikdə, infrastrukturun yeniləşdirilməsi nəticəsində 50 mindən çox şagirdin təhsil şəraiti yaxşılaşdırılmış, bu proses bütün bölgələri əhatə etmişdir. Qədim maarifçilik ənənələrinə malik ulu diyarımızda müstəqillik illərində aparılan uğurlu təhsil siyasətinin nəticəsidir ki, 2020-2021-ci tədris ilində ali və orta ixtisas məktəblərinə qəbulun nəticələrinə görə muxtar respublika liderdir. Yəni 72 faizdən artıq gənc ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Oktyabrın 1-də – Müəllimlər Günü ərəfəsində zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 88 şagird yerlik Araz kənd ümumi orta məktəbinin, oktyabrın 25-də isə 2 mərtəbədən ibarət olan 198 şagird yerlik Dərvişlər kənd tam orta məktəbinin yeni binaları istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış mərasimlərində iştirak etmiş, məktəblərdə yaradılan şəraitlə tanış olmuş, sonra hər iki məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur. Muxtar respublika rəhbəri kollektivləri yeni məktəb binalarının istifadəyə verilməsi münasibətilə təbrik etmiş, təhsil ocaqlarının muxtar respublika məktəbləri arasında özünə layiq yer tutacaqlarına və Araz kənd ümumi orta məktəbinin tam orta məktəbə çevriləcəyinə əminliyini bildirmiş, kollektivlərə uğurlar arzulamışdır.

Kəndlərdə aparılan quruculuq işlərinin əsasını təşkil edən dövlət qurumlarının eyni məkanda və daha müasir binada fəaliyyət göstərməsi üçün müasir kənd mərkəzlərinin istifadəyə verilməsi sakinlərə sosial xidmətin keyfiyyətinin yüksəldilməsinə hesablanmışdır. Oktyabrın 1-də Araz, 25-də isə Dərvişlər kənd mərkəzləri istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov binalarda yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, ikimərtəbəli kənd mərkəzlərində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, zəngin fonda malik kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatları, arxiv və zal yerləşir. Rabitə evlərində yeni nəsil ATS-lər quraşdırılmış, hər iki kənddə yaradılan şərait internet istifadəçilərinin sayının artmasına səbəb olmuşdur.

Məlumat verilmişdir ki, aparılan profilaktik tədbirlərin nəticəsidir ki, muxtar respublikanın rayonlarında epizootik vəziyyət sabitdir. Ali Məclisin Sədri baytarlıq işinin əhəmiyyətini vurğulayaraq muxtar respublikada özəl baytarlıq məntəqələrinin yaradılması ilə əlaqədar tapşırığın verildiyini bildirmiş, kadr təminatına diqqəti çəkmiş, maarifləndirmə tədbirlərinin iclas zallarında keçirilməsi barədə tapşırıqlar vermişdir.

Yaşayış məntəqələrində yeni səhiyyə müəssisələrinin tikilməsi sakinlərin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısının, insan amilinə verilən dəyərin bariz ifadəsidir. Araz və Dərvişlər kəndlərində istifadəyə verilən kənd mərkəzlərinin birinci mərtəbələrində yerləşən feldşer-mama məntəqələrində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Əvvəllər uyğunlaşdırılmış binalarda fəaliyyət göstərən bu səhiyyə ocaqlarında müasir iş şəraiti yaradılmış, feldşer-mama məntəqələri zəruri tibbi avadanlıqlarla təmin olunmuşdur. Muxtar respublika rəhbəri tibbi xidmətin, peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

Həyata keçirilən quruculuq işləri, yaradılan müasir sosial obyektlər sırasında xidmət mərkəzləri də xüsusi əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov oktyabrın 1-də Araz kəndində, 25-də isə Dərvişlər kəndində xidmət mərkəzlərinin açılışını etmişdir. Məlumat verilmişdir ki, xidmət mərkəzlərində bərbərxana, mağaza və anbar yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, Araz kəndindəki xidmət mərkəzində 2, Dərvişlər kəndində xidmət mərkəzində isə 5 nəfər işlə təmin olunmuşdur. Hər iki xidmət mərkəzində ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilir. Muxtar respublika rəhbəri tələbata uyğun məhsulların satışının həyata keçirilməsi barədə tapşırıq vermişdir.

Yaşayış məntəqələrində içməli su və kanalizasiya şəbəkələrinin istifadəyə verilməsi də insanların rahatlığına xidmət edən mühüm sosial tədbir kimi diqqətdə saxlanılır. Muxtar respublikada bu sahədə kompleks işlər həyata keçirilir, əhali ekoloji təmiz və dayanıqlı içməli su ilə təmin olunur. Şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də yeni içməli su və kanalizasiya şəbəkələri qurulur. Oktyabrın 1-də Araz kəndində içməli su və kanalizasiya şəbəkəsinin açılışı olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Məlumat verilmişdir ki, Babək rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi əsasında Araz kəndinə 14,3 kilometr içməli su xətti, 8,8 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilmiş, şəbəkə Babək şəhər kanalizasiya xəttinə qoşulmuşdur.

Ali Məclisin Sədri Araz kənd içməli su şəbəkəsinin açılışını bildirən qurğunu işə salmışdır.

İqtisadi inkişafın başlıca şərtlərindən biri də yol infrastrukturunun yaradılmasıdır. Muxtar respublikada yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması həyata keçirilən quruculuq işlərinin əsas tərkib hissəsidir. Naxçıvan şəhərində olduğu kimi, rayon və kəndlərdə də avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurulur. Həyata keçirilən tədbirlər çərçivəsində Araz və Dərvişlər yaşayış məntəqələrində kənd avtomobil yolları yenidən qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hər iki kənddə yollarda yaradılan şəraitlə maraqlanmışdır. Qeyd edək ki, Araz kəndində ümumi uzunluğu 8,7 kilometr, Dərvişlər kəndində isə ümumi uzunluğu 4,8 kilometr olan yola asfalt örtük salınmış, Araz kəndində 600, Dərvişlər kəndində isə 800 metrlik kənddaxili yollar hamarlanaraq qum-çınqıl qatı verilmiş,




hər iki kənddə metal boru su keçidləri qoyulmuş, beton su kanalları çəkilmişdir.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonu bu gün aqrar sahədə də inkişafın yeni mərhələsini yaşayır. Rayonda torpaq mülkiyyətçilərinin keyfiyyətli toxum sortları ilə təmin edilməsində və əkinçilikdə yeni metodların tətbiqində Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsi mühüm rol oynayır. Əvvəllər dayaq məntəqəsinin binası yararsız vəziyyətdə idi. İndi isə fəaliyyəti günün tələbləri səviyyəsində qurmaq üçün hər cür şərait yaradılmışdır. Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dayaq məntəqəsində yaradılan şəraitlə tanış olmuşdur.

Ali Məclisin Sədri çıxış edərək dayaq məntəqəsinin əkinçilik ənənələrini qoruması, qədim və yerli meyvə sortlarının, dənli bitkilərin və digər ərzaq məhsullarının bərpası sahəsində iş aparılması, balansda olan 8,1 hektar ərazinin müəssisəyə gəlir gətirməsi barədə tapşırıqlar vermişdir.

Muxtar respublika rəhbəri məntəqə ərazisində əkilən buğda, arpa, yerli qarğıdalı, eləcə də meyvə və çərəz sortları nümunələrinə baxmışdır.

Ali Məclisin Sədri ənənəvi olaraq abad yaşayış məntəqələri sıralarına daxil olan Araz və Dərvişlər kəndlərinin sakinləri ilə də görüşmüş, kompleks quruculuq işlərinə görə kənd sakinlərini təbrik etmişdir. Muxtar respublika rəhbəri bildirmişdir ki, sakinlər kəndin inkişafını təmin etməli, məskunlaşma daha da artmalı, torpaqlardan səmərəli istifadə olunmalı, yaşıllıqlar salınmalı, ailə təsərrüfatları inkişaf etdirilməli, bir sözlə, yaradılan şərait kəndin bundan sonrakı inkişafını sürətləndirməlidir.

Naxçıvan Muxtar Respublikasında kəndlərdə müasir infrastrukturun yaradılması, kəndlərin kompleks inkişafına, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına xidmət etməklə muxtar respublika iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının inkişafına da güclü təkan vermiş olur. Görülən çoxsaylı tədbirlər sırasında torpaq ehtiyatlarından səmərəli istifadə, meliorativ tədbirlərin həcminin genişləndirilməsi, mütərəqqi suvarma şəbəkələrinin qurularaq istifadəyə verilməsi də xüsusi yer tutur. Oktyabrın 14-də “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin Kəngərli rayonundakı əkin sahələrində tikilən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Qeyd edək ki, ümumilikdə, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin 2069 hektar əkin sahəsində qapalı suvarma şəbəkəsi qurulmuş, buna 2 milyon manatdan artıq vəsait sərf olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni suvarma şəbəkəsinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə iştirak etmiş, muxtar respublikada payızlıq taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 2022-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 30 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi, Naxçıvan Toxumçuluq Mərkəzində 1200 hektar sahədə payızlıq taxıl əkini aparılması nəzərdə tutulmuşdur. Payızlıq taxıl əkini üçün muxtar respublikanın torpaq mülkiyyətçilərinə 6 min 500 ton arpa və buğda toxumları tələb olunur. Tələb olunan toxum Naxçıvan Toxumçuluq Mərkəzində, “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində mövcuddur. Əkin zamanı muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun sınaqdan keçirilmiş reproduksiyalı arpa və buğda sortlarından istifadə edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bildirmişdir ki, bu işlər bundan sonra da davam etdiriləcək, Kəngərli rayonunun Xok kəndindən başlamış Naxçıvan şəhərinin Qaraçuq kəndinə qədər olan, təqribən, 2 min hektara yaxın ərazidə də meliorativ tədbirlər aparılacaq və bu ərazilər də dövlət fondunda qalmaqla əhaliyə icarəyə veriləcəkdir. Vurğulamışdır ki, muxtar respublikanın mövcudluğu dövründən bu ərazilər ilk dəfədir ki, əkin dövriyyəsinə qatılır, bu da ərzaq təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Muxtar respublika rəhbəri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmiş, qapalı suvarma şəbəkəsinin tikintisində iştirak edənlərə hədiyyələr təqdim etmiş və suvarma şəbəkəsini işə salmışdır. Ali Məclisin Sədri ərazinin pasportlaşdırılması, payız suvarma mövsümünə başlanılması, toxumçuluq təsərrüfatında təbii gübrəyə üstünlük verilməsi, subsidiyaların verilməsinə nəzarət olunması, sifarişə uyğun kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya işlərinin davam etdirilməsi və ərazidə yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar vermişdir.

Müstəqillik illərində muxtar respublikada həyata keçirilən aqrar islahatlar ərzaq təhlükəsizliyinin təmin olunması, ərzaq bolluğu ilə nəticələnmiş, görülən tədbirlər arıçılığın da inkişafına öz bəhrəsini vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası arıçılıq təsərrüfatlarının sayının ilbeil artmasına səbəb olmuşdur. Təkcə 2021-ci ilin yanvar-sentyabr aylarında 12 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 4 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilir. Təsərrüfat subyektlərinə 2021-ci ilin yanvar-sentyabr aylarında 437 min 900 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,9 faiz çoxdur. Arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə subsidiyaların verilməsi bu sahəyə marağı daha da artırmışdır.

Naxçıvan şəhərində keçirilən “Arıçılıq məhsulları – bal satış yarmarkası” da arıçılar üçün geniş imkanlar açır. Oktyabrın 16-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən satış yarmarkası muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət


Ardı 2-ci səhifədə

göstərən 301 arıçı tərəfindən 17 tondan artıq süzmə, 3 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu, güləm, bal arağı və baldan hazırlanmış şirniyyatlar çıxarılmış, eləcə də dulusçuluq, ağacişləmə, tikmə nümunələrinin, ana arı yetişdirmə qutularının, termoplastik pətəklərin, ana arı təcridedici qurğuların, arıçıların hazırladıqları müxtəlif əl işlərinin də nümayişi və satışı həyata keçirilmişdir. “Naxçıvan Məhsulları” publik hüquqi şəxsin stendində 5 müəssisənin 8 məhsulu sərgilənmiş, müxtəlif çəkilərdə olan ballardan hədiyyəliklər nümayiş etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov satış yarmarkasında iştirak etmişdir. Muxtar respublika rəhbəri arıçılarla söhbət etmiş, bal və arıçılıq məhsullarından almış, onların qayğıları ilə maraqlanmışdır. Ali Məclisin Sədri ailə təsərrüfatlarına, o cümlədən arıçılara kreditlərin verilməsinin davam etdirilməsi, onların təkliflərinin nəzərə alınması, bu sahədə nəşrlərin artırılması, maarifləndirici tədbirlərin davam etdirilməsi və arıçılıq mədəniyyətinin formalaşdırılması barədə tapşırıqlar vermişdir. Satış yarmarkası oktyabrın 17-də də davam etmişdir.

### *Yeni iqtisadi, hərbi, mədəni tərəfdaşlığa doğru*

Dövlət müstəqilliyinin və ümummilli lider Heydər Əliyev ideyalarının sədaqətlə, yaradıcı şəkildə davam etdirilməsinin nəticəsidir ki, müstəqillik illərində Azərbaycanın Naxçıvan Muxtar Respublikası sabitlik və asayişin qorunduğu, güclü iqtisadi və turizm potensialına, dinamik inkişaf tempinə malik bir diyar kimi hərbi, iqtisadi, humanitar sahədə etibarlı tərəfdaş kimi dünya dövlətlərinin əsas diqqət mərkəzinə çevrilmişdir. Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü Ordu Komandanı, general-polkovnik Yavuz Türkgəncinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Ali Məclisin Sədri “Sarsılmaz qardaşlıq – 2021” birgə döyüş atışlı taktiki təlimin uğurla başa çatması, eləcə də yeni vəzifəyə təyin olunması münasibətilə Yavuz Türkgənciyə və nümayəndə heyətinə təbriklərini çatdırmışdır. Ali Məclisin Sədri Azərbaycan-Türkiyə birgə təlimlərinin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulamış, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə ehtiramını ifadə etmişdir.

Oktyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Ali Məclisin Sədri ikitərəfli əlaqələrdən bəhs etmiş, 2018-ci ildə İndoneziya nümayəndə heyətinin Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı tədbirlərində iştirakını, eləcə də İndoneziya səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərlərini xatırlatmışdır. İkinci Qarabağ müharibəsində İndoneziyanın üzv olduğu İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayan muxtar respublika rəhbəri keçirilən səmərəli görüşlərin bundan sonra da əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyini diqqətə çatdırmışdır.

### *Müstəqillik illərinin möhtəşəm nailiyyətləri daha firavan gələcəyə əminlik yaradır*

Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası çoxcəhətli inkişafa sabitlik və dövlət-xalq birliyi amili əsas götürülməklə nail olmuşdur. Dövlətinə və xalqına sədaqətlə xidmət edənlərin əməyi isə həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar ölkəmizin müxtəlif orden, medal və fəxri adları ilə təltif olunurlar. Oktyabrın 15-də də öz sahələrində fərqlənən, müstəqilliyimizin möhkəmlənməsində və ölkəmizin inkişafında özünəməxsus payı olanlar mükafatlandırılmış, 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası fəxri adlarının və gənc istedadlara xüsusi aylıq təqaüdün təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edərək ümummilli liderimizin Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi illəri dövlət müstəqilliyi üçün real tədbirlərin həyata keçirildiyi – Azərbaycanın taleyinə sahib çıxıldığı dövr kimi səciyyələndirmişdir. 1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarların Azərbaycanın dövlət müstəqilliyini təmin etdiyini xatırladan Ali Məclisin Sədri vurğulamışdır ki, 1993-cü ilin 15 iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycanı Milli Qurtuluşa qovuşdurmuşdur.

***“Bu gün Azərbaycanda müstəqilliyin, dövlətçiliyin və inkişafın yolu ulu öndərin siyasi xəttindən keçir”***, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ölkə Prezidenti bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sabitliyin və inkişafın təminatçısına çevirmiş, dövlət-xalq birliyi möhkəmlənmiş, güclü ordu yaradılmış, torpaqlarımız işğaldan azad olunmuşdur. Ötən dövrdə Naxçıvanda əldə olunan nailiyyətlər də müstəqilliyin nəyə qadir olduğunun göstəricisidir. Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalı 67, kənd təsərrüfatı məhsulları 14, sənaye istehsalının həcmi 114 dəfə artmış, 100 minə yaxın yeni iş yeri açılmış, yaşayış məntəqələri böyümüş, 1 rayon, 4 qəsəbə və 2 şəhər yaranmışdır. Tikinti-quruculuq işləri geniş vüsət almış, 200-dən çox təhsil, 202 səhiyyə, 400-ə yaxın mədəniyyət obyekti, 337 inzibati bina tikilmiş, bütün yaşayış məntəqələrini əhatə edən müasir yol-nəqliyyat və sosial infrastruktur istifadəyə verilmişdir. Ali Məclisin Sədri təltif olunanlara təbriklərini çatdırmış, 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, Naxçıvan Muxtar Respublikası fəxri adlarının döş nişanlarını və vəsiqələrini, gənc istedadlara xüsusi aylıq təqaüdün kartlarını təqdim etmişdir. Təltif olunanlar verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq etmişlər.

### *Muxtar respublika dövlət müstəqilliyinin 30-cu ildönümünü dövlətçilik tariximizdəki mühüm tarixi hadisə, muxtariyyətimizin tarixi nailiyyəti olan Qars müqaviləsinin 100 illiyi ilə birgə qeyd etdi*

Tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli yol keçmiş Naxçıvan gərgin siyasi mübarizələr bahasına belə, düşmən işğalından və istilasından qorunmuş, bununla Azərbaycanın dövlət müstəqilliyinin əsas amili kimi ərazi bütövlüyünün qorunmasına nail olmuşdur. Bu qədim diyar xalqımızın zəngin tarixi-mədəni irsini və dövlətçilik ənənələrini qoruyub yaşatmış, ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatına mühüm töhfələr vermişdir. Dövlətçilik tariximizdə müstəsna yer tutan məsələlərdən biri də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəd olan Qars müqaviləsidir. Təsadüfi deyil ki, dövlət müstəqilliyinin 30-cu ildönümündə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında” 2021-ci il 8 fevral tarixli Sərəncamına əsasən Naxçıvanın muxtariyyət statusunun təsbiti baxımından dövlətçilik tariximizdə mühüm mərhələni təşkil edən bu əlamətdar hadisə dövlət səviyyəsində qeyd olunmuş, oktyabrın 27-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edərək Qars müqaviləsinin hansı zərurətdən imzalanmasına və tarixi-siyasi əhəmiyyətinə nəzər salmışdır. Ali Məclisin Sədri demişdir: ***“Birinci Dünya müharibəsi başa çatdıqdan və çar Rusiyasının süqutundan sonra bölgədəki mövcud ictimai-siyasi vəziyyətdən istifadə edən ermənilər Naxçıvana qarşı əsassız ərazi iddialarına başlamış, ardınca bolşevik-daşnak sövdələşməsinin nəticəsi olaraq Zəngəzur mahalı Ermənistana verilmiş və Naxçıvan ölkənin əsas ərazisindən təcrid olunmuşdu. Həmin dövrdə Naxçıvan əhalisinin isə yalnız bir qanuni tələbi vardı: o da öz tarixi ərazisində yaşamaq, daim Azərbaycanla bir olmaq, ana Vətəndən ayrı düşməmək idi. Milli vətənpərvər qüvvələr tərəfindən 1918-ci ildə yaradılmış Araz-Türk Cümhuriyyəti Naxçıvanın erməni daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını almış və müstəqillik mübarizəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etmişdir. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə hökumətinin məsələyə ədalətli yanaşması nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanmışdır”.***

Qeyd olunmuşdur ki, Qars müqaviləsindən və muxtariyyət statusundan sonra da Ermənistan müəyyən bəhanələrlə Naxçıvana qarşı ərazi iddialarını davam etdirmişdir. Sovetlər Birliyi dövründə Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş bir sıra kəndləri Ermənistan tərəfindən zəbt olunmuşdur. Sovetlər Birliyi dağıdıldıqdan sonra isə Ermənistan Azərbaycana, o cümlədən Naxçıvana qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirməyə başlamış, əsrin əvvəllərində Qars müqaviləsi ilə üzərinə götürdüyü hüquqi və siyasi öhdəliyə məhəl qoymamışdır. Lakin 1990-1993-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən qorumuş, dahi rəhbərin həmin illərdə milli müstəqillik yolunda atdığı addımlar Naxçıvanı qorumaqla yanaşı, həm də, bütövlükdə, Azərbaycan xalqının qurtuluş tarixinin əsasını qoymuşdur.

Muxtar respublika rəhbəri çıxışında ulu öndərin 1992-ci ildə Türkiyəyə səfəri zamanı Qars müqaviləsini yenidən gündəmə gətirməsindən, iştirakçı dövlətləri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktına münasibət bildirməyə çağırmasından, ölkəmizə rəhbərliyi dövründə də ümummilli liderin bu məsələni daim diqqətdə saxlamasından da bəhs etmişdir.

Ali Məclisin Sədri müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında Qars müqaviləsi və Naxçıvanın muxtariyyət tarixinin tədqiqi və təbliği istiqamətində görülən işlərdən də danışmış, qeyd etmişdir ki, Qars müqaviləsindən 100 il sonra – 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi Qars müqaviləsinin məntiqi davamı olmaqla, Cənubi Qafqazda münasibətlərin yeni istiqamətdə inkişafının əsasını qoymuşdur. Həm də Şuşa Bəyannaməsi regionda sülhə, sabitliyə və əməkdaşlığa təminat verən mühüm tarixi-hüquqi sənədlərdir. Ali Məclisin Sədri Qars müqaviləsinin imzalanmasında böyük xidmətləri olan tarixi şəxsiyyətlərin və Naxçıvanın müdafiəsində fədakarlıq göstərən vətənpərvər insanların xatirəsini ehtiramla yad etmiş, müqavilənin 100 illik yubileyi münasibətilə tədbir iştirakçılarını və bütün muxtar respublika əhalisini təbrik etmişdir.

Tədbirdə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış etmiş, müqavilənin 100 illiyi münasibətilə hazırlanmış sənədli film izlənilmiş, sərgiyə baxış olmuşdur.

### *İki qardaş ölkənin dövlətçilik tarixindəki iki mühüm hadisə Azərbaycan-Türkiyə dostluq və qardaşlığının dövlət səviyyəsinə yüksəldildiyi bir tarixi mərhələdə qeyd olunmuşdur*

Oktyabr ayında iki qardaş ölkənin – Azərbaycan-Türkiyənin dövlətçilik tarixindəki iki mühüm hadisə – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü və Türkiyə Respublikasının Cümhuriyyət bayramı xalqlararası dostluq və qardaşlığın dövlət səviyyəsinə yüksəldilməsi kimi bir tarixi mərhələdə qeyd edilmişdir. Heç şübhəsiz ki, bu sarsılmaz birlikdə “Şərqin qapısı” sayılan Naxçıvan Muxtar Respublikası tarixən müstəsna rola malik olmuşdur. 1992-ci ilin martında ulu öndər tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası qoyulmuşdur. Ötən bu illər ərzində Türkiyə-Azərbaycan əlaqələrində Naxçıvanın xüsusi yeri olmuşdur. Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 98-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan edilməsinin 98-ci ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək demişdir: ***“Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən bir millət, iki dövlət səviyyəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi dəstək bunun bariz ifadəsidir. Beynəlxalq Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa Bəyannaməsi ilə bir daha təsdiq olunmuş, həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlmişdir. Azərbaycan-Türkiyə əlaqələrindən danışarkən Naxçıvan Muxtar Respublikasının bu əlaqələrdə iştirakı və strateji əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Hazırda muxtar respublika ilə Türkiyə arasında bir çox istiqamətlər üzrə davam edən əməkdaşlıq məmnunluq doğurur”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il oktyabrın 26-da Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Məhmət Emin Kirazın “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” qızıl nişanı ilə təltif olunması haqqında Sərəncam imzalamışdır. Tədbirdə Ali Məclis Sədrinin Sərəncamı oxunmuş, muxtar respublika rəhbəri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” qızıl nişanı və vəsiqəsini Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Məhmət Emin Kiraza təqdim etmişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də vurğuladığı kimi, bu gün dünyanın inkişaf etmiş ölkəsi kimi tanınan, söz və nüfuz sahibinə çevrilən Azərbaycanda müstəqilliyin, dövlətçiliyin və inkişafın yolu ulu öndərin siyasi xəttindən keçir. Onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının isə günbəgün inkişaf etməsi, möhtəşəm uğurlar qazanması, qərinədən artıq bir müddətdə blokadada olmasına baxmayaraq, dünyada nümunə sayılacaq müasir inkişaf modelinə nail olması görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin müdrik ideyalarının sədaqət və əzmkarlıqla gerçəkləşdirilməsinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi:* ***“...Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir”.***

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## *“Karyera günü”* keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə “Naxçıvan” Universitetində “Karyera günü” keçirilib. Tədbiri giriş sözü ilə universitetin rektoru Nurlana Əliyeva açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının əhəmiyyətini vurğulayan rektor qeyd edib ki, ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi məzunların gələcək karyera inkişafında xüsusi rol oynayır.

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli tədbirdə çıxış edərək deyib ki, muxtar respublikada dövlət idarəçiliyi sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri də müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsidir.

Muxtar respublikamızda gənclərin məşğulluğu üçün geniş şəraitin yaradıldığını bildirən İsmayıl Qəribli deyib ki, hazırda Dövlət İmtahan Mərkəzi tərəfindən 33 istiqamət üzrə işə qəbul, attestasiya, sertifikasiya və qiymətləndirmə imtahanları keçirilir. Gənclər dövlətin yaratdığı şəraitdən istifadə etməklə karyera hədəflərini müəyyənləşdirməli və onlara çatmaq üçün səylə çalışmalıdırlar.

Sonra Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Məmməd Babayev slayd vasitəsilə Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət orqanlarına və digər müəssisələrə işə qəbulu qaydaları haqqında tələbələrə məlumat verib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasında aparılan araşdırmalar göstərir ki, bu qədim yurd yeri bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən biri olmuşdur. Bu baxımdan muxtar respublikanın bol sulu çayları, münbit torpaqları, əlverişli coğrafi mövqeyi, metal və qeyri-metal yataqları qədim əkinçi-maldar tayfaların bu ərazidə erkən məskunlaşmasına səbəb olmuşdur. Bu ərazidə hələ Daş dövründən məskunlaşma başlanmış, qədim əkinçilik mədəniyyətlərinin əsası qoyulmuşdur. Demək olar ki, Naxçıvanın hər bir rayonunun ərazisində müxtəlif dövrlərin yadigarı olan abidələr mövcuddur. Həmin abidələrdə zaman-zaman geniş arxeoloji tədqiqatlar aparılmış, hər bir daşın, keramikanın tarixi öyrənilmişdir.***

***Axtarışlar, tapıntılar***

# Naxçıvan arxeologiyası və son illərin uğurlu tədqiqatları



Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən arxeoloji abidələr Azərbaycan tarixinin öyrənilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Belə araşdırmalar Naxçıvan Muxtar Respublikasının Cənubi Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu göstərir. Naxçıvanda formalaşan qədim mədəniyyətlər tarixən qonşu ölkələrlə sıx bağlı olduğundan bu bölgənin arxeoloji abidələri yalnız Naxçıvanın deyil, bütövlükdə, Cənubi Qafqaz tarixinin öyrənilməsi üçün də əhəmiyyətlidir. Ümummilli lider Heydər Əliyev Naxçıvan abidələrini yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var".***

XIX əsrin 70-ci illərindən başlanan



arxeoloji tədqiqatlar bu diyarın çox qədim tarixə malik olmasını və dünya mədəniyyəti tarixindəki unikal mövqeyini bəlli etmişdir. O dövrdən keçən müddət ərzində Naxçıvan ərazisində xeyli arxeoloji abidə aşkar edilib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra isə bu iş olduqca geniş vüsət almış, abidələrimizin qeydə alınması, milli zəmində tədqiqi, bərpası və qorunması sahəsində xeyli işlər görülmüşdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan tarixinin araşdırılması sahəsindəki tapşırıq və tövsiyələri, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun arxeoloji abidələrin tədqiqinə göstərdikləri diqqət və qayğı Naxçıvan arxeologiyasının daha dərindən öyrənilməsinə şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra bu sahəyə diqqət daha da artırılmışdır. AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarının birlikdə apardıqları məqsədyönlü tədqiqatlar nəticəsində muxtar respublika ərazisində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, onların da əksəriyyəti arxeoloji abidədir. Bu arxeoloji abidələr Naxçıvanın qədim və orta əsr tarixinin öyrənilməsi üçün olduqca dəyərli mənbədir.

Bu illər ərzində Gəmiqaya arxeoloji abidəsinə səfər təşkil edilmiş, qayaüstü təsvirlər aşkarlanmış və çoxlu sayda elmi nəşrlər hazırlanmışdır. Eyni zamanda Naxçıvan şəhərində mötəbər elmi tədbirlər təşkil edilmiş, konfrans və simpoziumlar keçirilmişdir. Bütün bu tədbirlərdə qədim və zəngin tariximiz, mədəniyyətimiz təbliğ olunmuş, əldə edilmiş elmi nailiyyətlər, son illərin uğurlu tədqiqatları Azərbaycan və dünya elmi ictimaiyyətinə çatdırılmışdır.

Müstəqillik dövründə həm yerli, həm də xarici tədqiqatçıların arxeoloji ekspedisiyaları nəticəsində ən qədim tariximiz daha dəqiq və sistemli şəkildə öyrənilmişdir. Sübut olunmuşdur ki, Naxçıvan ən qədim mədəniyyətlərin ilkin yaranma mərkəzlərindən biridir və burada tarixi dövrlər arasında arasıkəsilməz varislik əlaqələri mövcuddur.

Naxçıvan Muxtar Respublikası ərazisində ən qədim mədəniyyətlər olan Eneolit mədəniyyəti, Kür-Araz mədəniyyəti, Boyalı qablar mədəniyyəti, əsasən, çay vadilərində yaranıb formalaşmışdır. Belə vadilərdən Arpaçay, Naxçıvançay, Gilançay, Əlincəçay vadilərini misal göstərmək olar ki, həmin ərazilərdə tarixin bir çox dövrlərində diyarın qədim sakinləri tərəfindən məskunlaşmalar olmuş və nəticədə, böyük mədəniyyətlər yaranmışdır. Adıçəkilən vadilərdə əvvəllər də tədqiqatlar aparılmışdır. Amma müstəqillik illərində aparılan tədqiqatlar milli xarakterli olmuş və tariximizin qədimliyi, mədəniyyətimizin zənginliyi olduğu kimi ictimaiyyətə çatdırılmışdır. Tarix olduğu kimi yazılmış, hər bir daşa, hər bir saxsı parçasına doğma münasibət göstərilmişdir. Eyni zamanda xarici arxeoloqların təcrübəsindən istifadə edilməsi və muxtar respublika ərazisində



beynəlxalq arxeoloji ekspedisiyaların fəaliyyətinə imkan yaradılması da Naxçıvan arxeologiya elminin inkişafına öz müsbət təsirini göstərmişdir. 2006-2016-cı illərdə Şərur rayonu ərazisində, Arpaçay vadisində Azərbaycan-ABŞ birgə arxeoloji ekspedisiyasının tədqiqatları nəticəsində bir neçə abidədə – Dəmir dövrünün Oğlanqala, Orta Tunc dövrünün Qızqala abidələrində sistemli qazıntı işləri təşkil olunmuş, abidələr müasir dövrün tələbləri səviyyəsində öyrənilmişdir. Eyni zamanda bu müddət ərzində qədim Şərur düzündə yerüstü tədqiqatlar da həyata keçirilmiş, bir neçə kurqantipli qəbir abidəsi aşkar edilərək öyrənilmiş və zəngin maddi mədəniyyət nümunələri üzə çıxmışdır. Bu gün həmin tapıntılar muxtar respublikanın muzeylərini zənginləşdirir və gələcək elmi araşdırmalara yol açır.

2006-cı ildən Arpaçay və Naxçıvançay vadilərində araşdırma aparan Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası bu sahədə böyük nailiyyətlər qazanmış və diyarımızın nə qədər qədim tarixə malik olduğunu dəfələrlə elmi faktlarla sübut etmişdir. 2006-2012-ci illərdə Ovçulartəpə yaşayış yerində aparılan araşdırmalar eradan əvvəl V-VIII minilliklərdə Naxçıvan ərazisində yaşayan tayfaların həyat tərzini öyrənməyə imkan vermiş, Proto Kür-Araz mədəniyyətinin mənşəyi ortaya çıxarılmış, Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etdiyi müəyyən olunmuşdur. Burada aşkar edilən üzərində qabarıq keçi və qoyun təsvirləri olan gil qablar Naxçıvanda professional təsviri sənətin səkkiz min il tarixi olduğunu deməyə imkan vermişdir.

Naxçıvan ərazisində Eneolit, Tunc, Dəmir və Antik dövrlərə mənsub zəngin maddi mədəniyyət nümunələri ilə təmsil olunan arxeoloji abidələrin aşkar edilməsi və müasir elmin inkişaf təcrübəsindən istifadə etməklə aparılan tədqiqat işləri diyarın qədim tarixini daha geniş şəkildə öyrənməyə şərait yaratmışdır.

Naxçıvanın Eneolit və Erkən Tunc dövrü abidələrinin tədqiqi istər Eneolit, istərsə də Erkən Tunc dövrü ilə bağlı bir çox məsələlərin həlli üçün, xüsusilə bu dövrdə Naxçıvanın qədim sakinlərinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə əlaqələrini öyrənməyə və bu əlaqələrin qədim mədəniyyətlərin formalaşmasındakı əhəmiyyətini üzə çıxarmağa imkan vermişdir. Muxtar respublika abidələrinin araşdırılması, həmçinin ölkəmizin qədim sakinlərinin həyat tərzi, məşğuliyyəti, köçmə maldarlığın meydana gəlməsi ilə bağlı məsələləri də aydınlaşdırmağa şərait yaradır.

Son illər Şərur rayonu ərazisində Oğlanqala, Ovçulartəpə, Qızqala, Ərəbyengicə, Xələc, Şortəpə, I Maxta Kültəpə, Babək rayonu ərazisində I Kültəpə, Meydantəpə, Sirab abidələri, Ordubad rayonu ərazisində Gəmiqaya, Xaraba Gilan, Plovdağ və sair arxeoloji abidələrində qədim yaşayış yerləri, zəngin keramika məmulatı və bölgənin qədim sakinlərinin həyat tərzini, məşğuliyyətini, dəfn adətlərini, müxtəlif bacarıqlarını, əmək alətlərini öyrənməyə imkan verən uğurlu arxeoloji tədqiqatlar həyata keçirilmiş və bu tədqiqatlar hazırda davam etməkdədir. Həmin abidələrin bəziləri təsadüf nəticəsində aşkar olunsa da, sonralar ciddi tədqiqatların obyektinə çevrilmiş və xalqımızın uzaq keçmişdən başlayaraq yaratdığı zəngin mədəniyyət nümunələri yenidən öyrənilmişdir.

Yuxarıda bəhs edilənlərə diqqət yetirdikdə aydın olur ki, qısa zaman çərçivəsində tariximizin və mədəniyyətimizin öyrənilməsi, yeni-yeni abidələrin üzə çıxarılması və elmi ictimaiyyətə çatdırılması, təbliği istiqamətində olduqca böyük işlər görülmüşdür. Həmçinin qeyd etmək lazımdır ki, son illər muxtar respublika ərazisindəki bir çox dünya, ölkə və yerli əhəmiyyətli abidələrdə bərpa işləri aparılmış və bu abidələrə yeni həyat verilmişdir. Misal üçün qeyd edə bilərik ki, Şərur rayonu ərazisindəki Oğlanqala, Qızqala, Ovçulartəpə və Babək rayonu ərazisindəki I Kültəpə abidələrinin ətrafı hasarlanmış və bu abidələrin qorunub saxlanması üçün müəyyən tədbirlər görülmüşdür. Bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə bir neçə qalatipli qədim yaşayış yerləri, körpü və monumental abidələrdə əsaslı bərpa işləri aparılmış və həmin abidələr bu gün diyarımızın ən dəyərli və görməli yerlərindən birinə çevrilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə 21 sentyabr 2021-ci il tarixdə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir ki, Naxçıvanın qədim və müasir dövlətçilik tarixi alimlərimiz üçün əsas tədqiqat predmeti olmalı, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu bu mövzu ilə bağlı yeni elmi əsərlər işləməlidir. İnanırıq ki, tarix və mədəniyyətimizə olan bu diqqət və qayğı nəticəsində tariximiz daha dərindən öyrəniləcək, hər bir abidə araşdırılarkən yeni-yeni istiqamətlər müəyyənləşəcək və gələcək nəsillərə fundamental elmi nəticələr ötürüləcəkdir.

**Emin MƏMMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının müəllimi***

## Azərbaycan gəncliyi xalqımızın gələcəyidir



*Naxçıvan Müəllimlər İnstitutunda Yeni Azərbaycan Partiyası Naxçıvan Müəllimlər İnstitutu ərazi ilk partiya təşkilatının təşkilatçılığı ilə 10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi çərçivəsində "Azərbaycan gəncliyi xalqımızın gələcəyidir" mövzusunda tədbir keçirilib.*

Tədbirdə institutun rektoru, dosent Azad Novruzov və Yeni Azərbaycan Partiyasının Naxçıvan Şəhər Təşkilatının sədri, dosent Elman Cəfərli giriş nitqi ilə çıxış ediblər.

Azad Novruzov bildirib ki, Naxçıvan Müəllimlər İnstitutunda tələbə-gənclərin milli ruhda tərbiyəsi və əsl vətəndaş kimi formalaşması xüsusi diqqət mərkəzində olan məsələlərdəndir. Onların yüksək səviyyədə təhsil almaları üçün innovativ metodlar tətbiq edilir, tariximiz və milli mədəniyyətimiz təbliğ olunur. Görülən işlər gənclərin daha savadlı və hərtərəfli inkişafında mühüm rol oynayır.

Elman Cəfərov çıxışında diqqətə çatdırıb ki, gənclərin siyasi fəaliyyətinin düzgün istiqamətlənməsi yolunda Yeni Azərbaycan Partiyasında gəncləşmə prinsipi hər zaman ön cərgələrdən birini tutur. Partiyada gənclər siyasətinin uğurla davam etdirilməsi də bunun ifadəsidir. Ümummilli liderimiz Heydər Əliyev azad, firavan, demokratik, müasir, davamlı iqtisadi uğurlara əsaslanan dünyəvi dövləti möhkəmləndirmək və milli mənafeyi üstün tutmaq məqsədilə xalqın sonrakı taleyini Prezident cənab İlham Əliyevə həvalə edib. Naxçıvan Muxtar Respublikasında da ümummilli liderin dövlətçilik siyasəti uğurla davam etdirilir. Bu varislik siyasəti muxtar respublikamızda sürətli inkişafın əsasında dayanan əsas amil kimi gənclərin gələcəyə ümid və inamının möhkəmlənməsində əsas təsiredici və formalaşdırıcı stimuldur.

Sonra institutun Humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacızadə, pedaqoji fakültənin tələbələri Bəhriyyə Əhmədova və Abutalıb Ağa Kəngərli müxtəlif mövzularda məruzə ediblər.

Sonda tələbələrin hazırladıqları bədii hissəyə baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Azərbaycan beynəlxalq biznes-forumda təmsil olunub



Noyabrın 10-da Türkiyənin İstanbul şəhərində Türk Ticarət və Sənaye Palatasının assambleyası və biznes-forum keçirilib. Forumda respublikamızı Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti və Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov təmsil edib.

Assambleyada çıxış edən Rıfat Hısarcıklıoğlu Türk Ticarət və Sənaye Palatası üzvlərinin İstanbul görüşündən gözləntiləri barədə danışıb.

Türk Şurası Baş katibi Bağdad Amreyev Türk Ticarət və Sənaye Palatasının İnvestisiya Fondunun yaradılması təklifinin həyata keçirilməsi perspektivləri barədə iştirakçılara məlumat verib.

Tədbirdə Naxçıvan üzərindən Türkiyə ilə Azərbaycanı birləşdirən Zəngəzur dəhlizinin təməlinin qoyulması və bu tarixi hadisələrin böyük Türk birliyi üçün mühüm əhəmiyyəti vurğulanıb. Açılış mərasimindən sonra keçirilən biznes-forumda Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Macarıstanı təmsil edən 300-dən çox sahibkar iştirak edib.

Forumda çıxış edən Vüqar Abbasov hər il noyabrın 10-da bütün Türk dünyasının dahi şəxsiyyəti olan Mustafa Kamal Atatürkün ehtiramla yad edildiyini bildirib. Qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatında yeni bir dövr başlayıb, ölkə iqtisadiyyatının potensial imkanları genişlənib. İşğaldan azad edilən torpaqlarımız yenidən iqtisadiyyatımızın bir parçası kimi inkişafımıza xidmət edəcək.

İkili görüşlərdə sahibkarların qarşılıqlı əlaqələrinin gələcək üçün nəzərdə tutulmuş layihələrdə uğurlar əldə edilməsi, gənc və qadın sahibkarların da həyata keçirilən tədbirlərdə fəal iştirakı baxımından əhəmiyyətindən danışılıb.

***"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***



Rəssam: Həbibə Allahverdiyeva

“Şərq qapısı” – 100

# Yüz yaşın mübarək, doğma qəzetim!

**Gənc qələm əhlinə olmusan mayak –**
**İdeya məktəbim, söz səltənətim,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Ağrılı-acılı günlər görmüsən,**
**Qəm-kədərdən söz çələngi hörmüsən,**
**Çətin sınaqlara sinə gərmisən,**
**Əyilməz, kəsərli sözüm, söhbətim,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Çoxdur şərəfinə, şanına rəğbət,**
**Böyükdür adına, sanına hörmət,**
**Çün ulu öndərdən almısan qiymət,**
**O gündən hey artır şanın-şöhrətin,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Ulu diyarımın ulu yazarı,**
**Qəlbi sözlə dolu söz xiridarı,**
**Ömrü xatırladır qoca çinarı,**
**Ruhu gənc, rüxsarı xoş lətafətlim,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Şərqin qapısından verirsən soraq**
**Dünəndən sabaha körpü salaraq.**

**Fotolar hüsnünə vurur naxışı,**
**Müasir yurduma çalır alqışı,**
**Yazılar birliyə edir çağrışı:**
**“Yaşa əziz xalqım, var ol dövlətim”**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Milli kimliyimdən açıb söhbəti,**
**Deyirsən unutma keçmişi qəti,**
**Təbliğ eyləyirsən milli sərvəti,**
**Danışan tarixim, mədəniyyətim,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Şairə, yazara verib qol-qanad,**
**Qoymursan it-bata düşə istedad,**
**Sözə dəyər verən, ey böyük ustad,**
**Getməsin heç zaman bada zəhmətin,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Böyüyüb yetmisən ahıl yaşına,**
**“Nəvə-nəticən” də dolub başına,**
**Arzumdur çatasan lap min yaşına,**
**Ürəkdə qalmasın arzun, niyyətin,**
**Yüz yaşın mübarək, doğma qəzetim!**

**Nail ƏSGƏROV**

***Şeir “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## İməciliklərdə ağac və gül kolları əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib



Noyabr ayının 13-də muxtar respublikada keçirilmiş iməciliklərdə 16 min 353 meşə, meyvə ağacı, gül və bəzək kolları əkilib.

Naxçıvan şəhərində Uzunoba Su Anbarının yaxınlığındakı 2,4 hektarlıq yeni salınmış bağda 1500 meyvə, dairəvi avtomobil yolunun kənarlarındakı 1,3 hektarlıq ərazidə bərpa məqsədilə 150 meyvə, 150 meşə, digər ərazilərdə isə, ümumilikdə, 340 meyvə, 270 meşə və 88 həmişəyaşıl ağac və 320 gül kolu əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Naxçıvan-Sədərək magistral yolunun Şərur rayonunun Zeyvə kəndi hissəsində yol kənarlarına 265 həmişəyaşıl ağac və 2100 gül kolu, Püsyan kəndindəki 9 hektarlıq bağda isə bərpa məqsədilə 310 meyvə ağacı əkilib, ahıl vətəndaşın evində, həyətində təmizlik işləri aparılıb.

Həmin gün Babək rayonunun Məzrə və Xalxal kəndlərində Naxçıvançay sahillərində 3 hektarlıq ərazidə bərpa məqsədilə 1500 meşə ağacı əkilib, yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib.

Bağlar diyarı Ordubad rayonunun Əylis düzündəki 0,5 hektarlıq yeni salınmış bağda 300 meyvə ağacı, 250 gül kolu, bərpa məqsədilə isə 5 hektarlıq ərazidə 900 meşə və 250 meyvə ağacı əkilib.

Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasına gedən yolun kənarlarında və yeni tikilən obyektlərin ətrafında 1,2 hektarlıq ərazidə 600 meşə ağacı, digər ərazilərdə isə bərpa məqsədilə, ümumilikdə, 5 hektarlıq ərazidə 1150 meyvə ağacı əkilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral avtomobil yolunun Böyükdüz kəndi hissəsindəki 0,5 hektarlıq yeni salınmış bağda 310, rayon mərkəzindəki 0,8 hektarlıq ərazidə isə 500 meyvə, Bayraq Meydanının ətrafında 150 həmişəyaşıl ağac, bərpa məqsədilə magistral yolun Xok kəndi hissəsindəki 2 hektarlıq ərazidə 400 meyvə ağacı əkilib.

Şahbuz rayonunun Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun Sələsüz kəndi hissəsindəki 1,2 hektarlıq yeni salınmış bağda 1600, Sələsüz kəndindəki 1,5 hektarlıq ərazidə isə bərpa məqsədilə 400 üzüm tingi əkilib.

Sədərək rayonunun ərazisindəki 1 hektarlıq yeni salınmış bağda 1200, 3 hektarlıq ərazidə isə 1350 meyvə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 15 noyabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1692 | 1482 | 210 |
| 2. | Babək rayonu | 4674 | 2536 | 2138 |
| 3. | Ordubad rayonu | 240 | 41 | 199 |
| 4. | Culfa rayonu | 1692 | 1267 | 425 |
| 5. | Kəngərli rayonu | 3254 | 1763 | 1491 |
| 6. | Şahbuz rayonu | 185 | 98 | 87 |
| 7. | Sədərək rayonu | 1404 | 194 | 1210 |
| 8. | Naxçıvan şəhəri | 179 | 130 | 49 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **13320** | **7511** | **5809** |

## Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı tədbir keçirilib



10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin birgə təşkilatçılığı ilə təşkil olunan yarışda 6 komanda olmaqla, ümumilikdə, 30 tələbə iştirak edib.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən yarışın reqlamentinə əsasən iştirakçılara 2 turda, ümumilikdə, müxtəlif mövzulardan 24 sual ünvanlandırılıb. Hər düzgün cavab 1 xalla qiymətləndirilib.

Yekun nəticəyə əsasən Naxçıvan Dövlət Universitetinin “Günnüt” komandası 16 xalla yarışın qalibi olub. Naxçıvan Müəllimlər İnstitutunun “Murov qartalı” komandası 12 xalla ikinci, Naxçıvan Musiqi Kollecinin “Harmoniya” komandası isə 8 xalla üçüncü yerlə kifayətləniblər.

**Ceyhun MƏMMƏDOV**

## Çoxnövçülük yarışında uğur qazanan komanda ilə görüş

*Xəbər verdiyimiz kimi, Xaçmaz şəhərində keçirilən çağırışaqədər və çağırışyaşlı gənclər arasında “Vətənin Müdafiəsinə Hazıram!” poliatlon çoxnövçülüyü üzrə ölkə birinciliyində muxtar respublika təmsilçiləri ikinci yerə layiq görülüblər.*



Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində uğurlu nəticə əldə edən Babək rayon komandası ilə görüş keçirilib.

Gənclər və idman naziri Ramil Hacı komanda üzvlərini təbrik edərək bildirib ki, qazanılan nəticə onu göstərir ki, bu istiqamətdə atılan addımların nəticəsi olaraq gənclərimiz vətənpərvərlik ruhunda böyüyür, onların yüksək taktiki-fiziki hazırlığı, hərb sənəti ilə bağlı əldə etdiyi bilik və bacarıqlar gələcəkdə ordu sıralarına cəlb olunmaları baxımından önəmli rola malikdir.

Görüşdə komanda üzvlərinin təəssüratları dinlənilib, göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq ifadə olunub.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimovun rəhbərliyi ilə ölkə birinciliyində 4 nəfərdən ibarət heyətin iştirakı təmin olunub. Komandanın üzvlərindən Fərid Həsənəliyev 1000 metr məsafəyə qaçış növündə (2.37 saniyə), Sənan Əşrəfov isə qumbaraatmada (50 metr) ən yüksək nəticə göstərərək mükafatçılar sırasına düşüblər.

## Naxçıvan Kikboksinq Federasiyası əməkdaşlıq əlaqələrini gücləndirir

Türkiyənin İstanbul şəhərində təşkil olunan və dünyanın 70-dən çox ölkəsində canlı yayımlanan peşəkar kikboksçuların ənənəvi döyüş gecəsi – “Levent Bulut Fight Club Champions Night”da Naxçıvan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev də iştirak edib. Tədbirə rəsmi qonaq qismində dəvət olunan federasiya sədri turnirin mükafatlandırma mərasimində yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə təşkilatçılara təşəkkürünü bildirib, Azərbaycan idmançılarının bu tip yarışlarda iştirakını yüksək qiymətləndirdiyini ifadə edib. Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının idman arenalarında da davam etdirilməsi təqdir olunub.

Turnirdən sonra yarışın təşkilatçısı, tanınmış məşqçi Ləvənd Bulud və Xəyal Abdullayev arasında görüş reallaşıb. İrimiqyaslı turnirlərin təşkilatçılıq məsələləri ilə bağlı mükazirə və məsləhətləşmələr aparılıb, Naxçıvanın gənc kikboksçularının bu tipli turnirlərdə iştirakının təmin olunması ilə bağlı razılıq əldə olunub. Görüşün sonunda “Levent Bulut Fight Club Champions Night”a məxsus xatirə kəməri Xəyal Abdullayevə hədiyyə olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Təlim-metodik toplantı

*Əlahiddə Ümumqoşun Orduda gənc zabitlərlə təlim-metodik toplantı keçirilib.*

Toplantıya Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən gənc zabitlər cəlb edilib.

Zabitlərin taktiki biliklərinin, qərar qəbuletmə bacarıqlarının artırılması və xidmətə düzgün istiqamətləndirilməsi üçün toplantının planına uyğun olaraq real döyüş şəraitinə yaxın məşğələlər təşkil edilərək keçirilib.

Müxtəlif hərbi ixtisaslar üzrə praktik bacarıqları yoxlanılan gənc zabitlər nəzəri dərslərdə də iştirak ediblər. Nəzəri dərslərdə əsas diqqət şəxsi heyətin psixoloji hazırlığına və 44 günlük Vətən müharibəsində düşmənlə informasiya qarşıdurması zamanı qazanılan nəticələrə yönəldilib.

Toplantıya cəlb edilmiş zabitlərdən ümumqoşun, ixtisas və fiziki hazırlıqdan məqbullar götürülüb, zabitlərin fiziki dözümlülüyü yoxlanılıb.

Təlim toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə gənc zabitlərin yüksək nəticələr göstərdikləri qeyd edilib və toplantının əhəmiyyətindən danışılıb.

**Nəriman NƏCƏFOV**

### İtmişdir

Şərur rayonunun Maxta kənd sakini Həsənov Hüseyn Həsən oğlunun adına olan 304A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Mahmudov Arzu Fəxrəddin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 955